

*Əbülfət MƏDƏTOĞLU*
*madatoglua@mail.ru*

# OVÇU OLDUQ

## Səyyad Aranın doğum gününə

**Əslində hər bir insan dünyaya gələndə özü ilə birlikdə onun missiyası da doğulub dünyaya gəlir. Və hər kəsin çiynində olan mələk onun yazılmış taleyini, qədərini ağlına, ürəyinə, duyğularına köçürür və qulağına pıçıldayır. Və beləcə başlayır bir insanın ömür yolu - iməkləyir, ayağa qalxır, addımlayır və məhz o addımlarla, daha doğrusu, o addımların sürətilə artıq alnına, ürəyinə, duyğularına yazılanın nədən ibarət olduğunu təxmin etmək mümkün olur. Yəni onu kənardan izləyən addımındakı qətiyyəti, cəsarəti, üz tutduğu səmti öz süzgəcindən keçirib daxilində qərar verir ki, bu Allah bəndəsi xeyirin, haqqın, insanlığın yanında olacaq, onun boy sırasını artıracaq və yaxud da əksinə...**

Bəli, mən bu söylədiyim fikirləri bir dünyagörmüş, həyatdan az-çox başı çıxan insan görüntüsü yaratmaq istəyi ilə söyləmirəm. Mən bunu dərk edib, anlayıb, öz içimdən keçirib sonra bilgisayara diqtə edirəm. Və bütün şüurlu həyatımda özümü dərk edəndən dəqiqləşdirdiyim bir gerçək var. O da bundan ibarətdir ki, sənin kimliyini səndən çox ətrafdakılar görür, ətrafdakılar bilir. Sənin özünə verdiyin qiymət yalnız başqalarının ələyində, tərəzisində, ölçüsündə öz təsdiqini tapandan sonra gerçəyə çevrilir. Gerçək isə həmişə qalibdi, həmişə ortadadı və onu görməmək mümkün deyil. İndi gəlirəm gerçəyin üstünə...

Onu öncə imzasından tanımışam. Dəqiq yadımdadı, ilk dəfə "Ulduz" jurnalında görmüşdüm imzasını. Və sonra maraqlanıb dəqiqləşdirmişdim ki, o, İmişlidə yaşayır və müəllim işləyir. Amma heç vaxt ağlıma gətirməmişdim ki, onunla qarşılaşacam, həyatda ünsiyyətimiz baş tutacaq, doğmalaşacağıq, bir-birimizin iç dünyasından xəbərdar olacağıq və hətta Azərbaycanın müstəqilliyi uğrunda, Azərbaycanın bu günü naminə hərəkatda bir yerdə olacağıq. Bax, bunları mən heç vaxt fikirləşməmişdim. Amma zaman və gerçəklik bunları mənim qarşıma çıxardı. Günlərin birində onunla cəbhə xəttində, bir az da dəqiq ifadə etsəm, cəbhənin lap yaxınlığında, Dağlıq Qarabağın Xocavənd rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı ərazidə görüşdüm. Rəhmətlik və çox dəyərli elm adamımız akademik Fərəməz Maqsudovla birlikdə bölgəyə gəlmişdi. Bir-birimizə əl uzatdıq və qiyabi tanışlığımızı əyaniləşdirdik. Beləcə, Səyyad müəllimlə həyatımın cəbhə müxbiri dönəmində tanış olduq. Və bu gün də o tanışlığın ömrümə yazıldığı günü çox əziz bir xatirə kimi, şirin bir məqam kimi, doğma bir an kimi özümə, həyatıma yol-yoldaşı etmişəm. Və tam səmimi etiraf edim ki, bu tanışlığın şaxələnən, artan əhatəsi şəxsən mənə daxili bir rahatlıq, bir güvənc, bir işığa üz tutmaq kimi anları bəxş edib. Mən yaşadıqca anlamışam ki, insani təmaslar dostluğa çevriləndə yaşamaq nisbətən asanlaşır, həyat nisbətən gözəlləşir və sən təklikdən, təklənməkdən bir iynə ucu boyda da olsa uzaqlaşa bilirsən. Deməli, Səyyad Aranla həmin o tanışlığımdan bu günə qədər hər görüşümüzdə yalnız iç dünyamızı bölüşmüşük, ədəbiyyata, jurnalistikaya, ailəyə aid söhbətlərin iştirakçısı olmuşuq. Və bir də ağrılı yerimiz olan yurd nisgilini öz prizmamızdan, öz baxış bucağımız altında çözməyə çalışmışıq. Amma nə yazıqlar ki, bizim bu çözümümüz hələ ki, səpilmiş dəndi. Onun cücərməsi zaman gözləyir. O zaman isə mütləq gələcək, buna biz hər ikimiz əminik, inanırıq. Deməli...

Mən təsadüfən biləndəki Səyyad müəllim ömrünün 65-ci ilinə əlini uzadıb və "xoş gəldin!" deyir, öncə inanmadım. Ona görə ki, Səyyad Aranın yazı "mətbəxi" onun ən azından 100 yaşında olduğunu büruzə verir. Mən onun hekayələrini, povestlərini, hətta publisist yazılarını oxuyanda elə hiss etmişəm ki, 100 yaşlı ağır taxtalı bir kişiylə həmsöhbətəm, onu dinləyirəm, ona qulaq asıram.



Üstəlik, həyat tərzinə az-çox bələd olduğum Səyyad müəllimin öz kredosuna necə dəqiqliklə əməl etdiyini də xatırlayıram. Deməli, səliqə-səhmanı, davranışı, geyimi, hətta süfrədə təamlara olan münasibəti də bu adamın yaşı ilə, mənim düşüncəmlə heç vaxt düz gəlməyib. Amma gerçəyi öyrənəndən sonra inanmağa başladım ki, Səyyad müəllimin düşüncəsinin, arzularının, yaşadıqlarının məqsədinin, məramının, dünyagörüşünün, xidmətlərinin və digər çalarlarının yaşı 100-ü keçib. Özünün bugünkü yaşı onun doğum tarixindən sayılan fizioloji yaşıdır. Bax, bu məntiqlə mən özüm üçün nəticə çıxarıram. Səyyad müəllim öz içində ikinci sözün, qələmin, Vətənin əsgərini yaşadıb və yaşadır. Məncə bu çox böyük xoşbəxtlikdir. Üstəlik, o, hər kəs qarşısında alnıaçıq, üzüağdır, hər kəsin gözlərinin içinə düz baxa bilir!..

Bir dəfə Səyyad müəllimlə həmsöhbət olanda onun dilindən bir kəlmə eşitdim. Düzünü deyim ki, neçə illik münasibətlərimizdə ilk dəfə idi ki, Səyyad müəllim məndən soruşurdu:

- Əbülfət, necə yaşayırsan?

Sual gözlənilməz olduğu üçün bir anlıq duruxdum. İçimdən qəribə hisslər keçdi. Nə deyəcəyimi, necə deyəcəyimi həmin o bir anın içərisində təxmin etməyə çalışdım. Cavab verməyə hazırlaşdığım elə həmin o bir anda Səyyad müəllim bir də dilləndi:

- Yazılarından bilirəm, hamısını oxuyuram.

Sanki üstümdən ağır bir yük götürüldü. Bu elə bir yük idi ki, onu ancaq dost götürə bilərdi. Bilirsiniz niyə? Mən o sualın cavabında nələrisə müxtəlif formada dilə gətirə bilərdim. Qayğıları, sıxıntıları, ehtiyacları və sairəni. Amma Səyyad müəllim məni öz sözlərimlə ifadə etdi. "Oxuyuram" - dedi. Onda bir daha anladım ki, "könüldən könülə yol var" deyən şairimiz nə qədər haqlı imiş. Axı, yazılar könül məhsuludu, könül diqtəsidi. Bunu ancaq o yazılara könül açanlar anlayırlar, həzm edirlər, öz könüllərində yer ayırırlar. Bax, həmin o andan bu günə qədər biz hər görüşümüzdə bir-birimizdən "necə yaşayırsan?" sualına cavab istəmirik, axtarmırıq. Deməli, bizi ruh dostu, ruh qardaşı edən söz ikimizin arasında gözlə görünməyən körpüdür. Və mən sevinirəm ki, o körpü işləkdir, o körpü bizim bir-birimizə olan inamımız, etibarımız, güvəncimizdir. Və...

Hə, mən Səyyad Aranın 65 yaşına tamam fərqli bir yazı yazmaq istəyirdim. Əsərlərindən sitatlar gətirmək, tərcümeyi-halını qabartmaq, ədəbiyyatda, siyasətdə yerini önə çəkmək, bugünkü mətbuatımızdakı mövqeyini qabartmaq və sairə. Amma sonda bilgisayar önündə dayananda onların hamısını unutdum. Özüm də bilmədən elə indi oxuduğunuz bu yazını diqtə etməyə başladım. Ona görə ki, Səyyad Aranın bir yazıçı, bir publisist, bir siyasətçi, bir dövlət xadimi kimi fəaliyyətini tənqidçilər, siyasətçilər, şərhçilər, eləcə də özü ranqda olan kimlərsə veriblər və verəcəklər. Mən bir dost istəyini, dost yaddaşının diqtəsini kağıza köçürdüm. Və yazının sonunda demək istəyirəm ki:

**- Səyyad müəllim, biz belə yaşayırıq. Yəni olduğumuz kimi, yəni yaşadığımız kimi. Və arzu edirəm ki, olduğumuz kimi yaşamaqda davam edək... Olduğumuz kimi mənəviyyatımızı, insanlığımızı saxlaya bilək və Sizin növbəti yuvarlaq doğum günlərinizi qeyd edəndə bu ana qədər necə yaşadığımızı da bir-birimizdən soruşmayaq, sadəcə yaşayaq!..**

Ədalət.-2017.-12 yanvar.-S.3.